# Azərbaycan - Kanada münasibətləri

**<u>Qısa tarixi məlumat:</u>**

Kanada Azərbaycan Respublikasının müstəqilliyini 25 dekabr 1991-ci ildə tanımışdır. İki ölkə arasında diplomatik münasibətlər 10 avqust 1992-ci ildə qurulmuşdur.

**<u>Parlamentlərarası əlaqələr:</u>**

***Dostluq qrupları:***

2006-cı ilin noyabr ayında Kanada Parlamentində *Kanada-Azərbaycan Parlamentlərarası Dostluq Qrupu* təsis edilmişdir. Qrupun sədri Kanada Parlamentin Mühafizəkarlar partiyasından olan üzvü Barri Devolindir.

Azərbaycan Respublikasının Milli Məclisində fəaliyyət göstərən *Azərbaycan-Kanada parlamentlərarası əlaqələr üzrə işçi qrupunun* rəhbəri, millət vəkili Sabir Rüstəmxanlıdır.

***Qarşılıqlı səfərlər:***

*2010-cu ilin may ayında* Azərbaycan Respublikasının Milli Məclisində fəaliyyət göstərən Azərbaycan-Kanada parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, millət vəkili Sabir Rüstəmxanlı Kanadada səfərdə olmuşdur.

*2-7 aprel 2013-cü il* tarixlərində Kanada-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun sədri, millət vəkili Barri Devolinin başçılığı ilə Kanada parlamentinin nümayəndə heyəti Azərbaycan Respublikasında səfərdə olmuşdur.

**<u>Sahələr üzrə əməkdaşlıq:</u>**

**<u>Siyasi sahədə:</u>**

- 27-28 mart 2006-cı il tarixlərində Azərbaycan Respublikası xarici işlər nazirinin müavini Araz Əzimov Kanadada səfərdə olmuşdur.

- 16 aprel 2010-cu il tarixində Kanadanın Xarici İşlər və Beynəlxalq Ticarət Departamentinin Avropa Bürosunun baş direktoru Robert Heyq Azərbaycanda səfərdə olmuşdur.

**<u>İqtisadi sahədə:</u>**

*Ticarət dövriyyəsi (Mənbə: AR-in Dövlət Gömrük Komitəsi)*

2013-cü ilin yanvar-mart ayları ərzində Azərbaycan Respublikasının Kanada ilə ticarət dövriyyəsinin həcmi 2,47 mln. ABŞ dolları, o cümlədən idxalın həcmi 2,47 mln. ABŞ dolları təşkil etmiş, ixrac əməliyyatları isə aparılmamışdır.

*Əsas saziş və müqavilələr:*

Azərbaycan Respublikası Hökuməti və Kanada Hökuməti arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergitutmadan yayınmanın qarşısının alınması haqqında Konvensiya (Bakı, sentyabr 2004-cü il).

**<u>Humanitar sahədə:</u>**

*Tələbə mübadiləsi*

Azərbaycan Respublikasının Hökuməti tərəfindən qəbul olunmuş "Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı (2007-2015-ci illər)" çərçivəsində hazırda 100 nəfərə yaxın azərbaycanlı gənc Kanadanın müxtəlif universitetlərində təhsil alır.

*Mədəniyyət, elm və təhsil sahələri üzrə birgə tədbirlər*

- 2006-cı ildən etibarən Kanadada keçirilən Niaqara Beynəlxalq Musiqi Festivalında Azərbaycan mütəmadi iştirak edir. Festival çərçivəsində Azərbaycan Mədəniyyəti və İncəsənəti Günləri keçirilmişdir.

- Ötən illər ərzində Kanadada Azərbaycanın görkəmli mədəniyyət və incəsənət xadimlərinin yaradıcılığına həsr olunmuş tədbirlər keçirilmişdir (Müslüm Maqomayev, Çingiz Sadıqov, Alim Qasımov və s.).

- 2010-2011-ci illərdə azərbaycanlı məcburi köçkünlərin həyatından bəhs edən və İzabel Hüberin müəllifi olduğu "Gülnarənin donu" (La robe de Gulnara) adlı tamaşa Kanadanın müxtəlif şəhərlərində nümayiş etdirilmişdir.

- Kanadanın tanınmış Toronto, Karlton, York və digər universitetləri ilə Azərbayacana həsr edilmiş birgə elmi konfranslar və dəyirmi masalar təşkil edilmişdir.

- 2013-cü il aprelin 19-da Azərbaycan Respublikasının Kanadadakı Səfirliyi tərəfindən Ottavada yerləşən Kanadanın Milli Qalereyasında Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illiyinə həsr olunmuş yubiley konserti keçirilmişdir.

- 2013-cü il aprelin 26-da Toronto Universiteti nəzdindəki Qlobal Məsələlər üzrə Mank Mərkəzində (Munk School of Global Affairs) "Azərbaycanda cari məsələlər" adlı seminar keçirilmişdir.

- 2013-cü mayın 26-da Toronto Konservatoriyasının Ettore Mazzoleni zalında Niaqara İpək Yolu Kamera Orkestrinin 28 May Respublika günü və Ümummilli Lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş konserti keçirilmişdir.

- 2013-cü il mayın 28-də Ontario əyalətinin Niagara-On-The-Lake şəhərində yerləşən Müqəddəs Mark kilsəsinin Adison zalında Niaqara İpək Yolu Kamera Orkestrinin 28 May Respublika günü və Ümummilli Lider Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuş konserti keçirilmişdir.

- 2013-cü ilin 21 iyul tarixində Kanadanın Niagara-On-The-Lake şəhərində Niaqara Musiqi festivalı çərçivəsində Azərbaycan Respublikasının Kanadadakı Səfirliyinin dəstəyi ilə Azərbaycan musiqisi və rəqsi konserti keçirilmişdir.

*Son yenilənmə tarixi: 15.08.2013*